# İNFORMASİYA TEXNOLOGİYALARI MƏRKƏZİNİN İLLİK FƏALİYYƏTİ (2020)

BDU-nun Elmi Şurasının 2020-ci il 14 fevral tarixli iclasının qərarı əsasında rektorun 17 fevral 2020-ci il tarixli R-20 saylı əmri ilə İnformasiya texnologiyaları Mərkəzində (İTM) struktur islahatları aparılmış və aşağıdakı şöbələr yaradılmışdır:

İnternet texnologiyaları şöbəsi;

İnformasiya sistemləri və şəbəkələrin inzibatçılığı şöbəsi;

Texniki və proqram təminatı şöbəsi;

İnformasiya təhlükəzliyi şöbəsi.

Pandemiya ilə əlaqədar olaraq dərslər distant formada keçirildiyi üçün bütün BDU əməkdaş və tələbələr üçün rəsmi elektron poçtları yaradılmışdır. Tələbələrin dərsləri və imtahan sesiyası Microsoft teams üzərindən təşkil olunmuşdur. İTM əməkdaşları tərəfindən 2020-2021-ci tədris ilində BDU-ya qəbul olmuş abituriyent və bakalavrların online qeydiyyatı üçün proqram təminatı yaradılmış və sənəd qəbulu komissiyası üzvləri tərəfindən 6000 nəfərə yaxın abiuriyent və bakalavrın online qeydiyyatı həyata keçirilmişdir. 5080 nəfər abituriyent və 700 nəfərdən çox bakalavr DİM-in saytında təsdiq olunmuşdur.

Reyest.info portalında qeydiyyat aparmaq məqsədilə 160 nəfər BDU əməkdaşları üçün treninqlər təşkil olunmuş və lazımi təlimatlarla təmin olunmuşdur. Beş treninq isə şirkət nümayəndələri ilə birlikdə olmuşdur. Onlar BDU-ya məxsus Ümumi məlumatlar bölməsində 1500 nəfərdən çox BDU əməkdaşını sistemdə qeydiyyatdan keçirmiş, onlarin təhsil və bilikləri, elmi dərəcə və adları, elmi fəaliyyət və elmi nəşrləri barədə məlumatları portalda yerləşmışdir.

2020-ci ildə BDU-nun İnternet şəbəkəsinə qoşulan kompyuterlərin sayı artmış, istismar müddəti başa çatmış kompyuterlər isə yeniləri ilə əvəz olunmuşdur.

“Sabah” qrupları üçün yaradılmış auditoriyalarda elektron lövhələrə, kompyuterlərə və proektorlara proqram və texniki xidmətlər göstərilmişdir. 2019-

2020-ci tədris ilində də fakültələrdə fəaliyyət göstərən kompyuter sinifləri öz işini davam edtdirmiş, pandemiya dövrundə isə siniflərə təhkim olunmuş İTM əməkdaşları müəllimlərin online dərslərinin keçmələrində aktiv köməklik göstərirlər.

Geologiya fakültəsinin dekanlığının, Sərqşünaslıq fakültəsinin tyutor və dekan müavinlərinin yeni otaqlarının, Kitabxanaçılıq-informasiya fakültəsinin tyutor otağının lokal şəbəkələri yenidən qurulmuş və kompyuterləri ümumuniversitet şəbəkəsinə qoşularaq İNTERNET-ə çıxışı təmin olunmuşdur. İmtahan auditoriyalarının kompyuterlərinə daimi proqram və texniki xidmətlər göstərilmiş, təmiri mümkün olmayanlar isə eyni tipli kompyuterlərlə əvəz olunmuşdur.

Hesabat ilində “Delta Telekom Ltd” MMM ilə bağlanmış müqaviləyə uyğun olaraq İNTERNET-in sürəti 400 mbit/s olmuşdur. Daxil olan internetin 40 mbit/s sürəti Jurnalistika fakültəsində daim fəaliyyət göstərən studiyaya verilmişdir.

İTM-n əməkdaşları həmçinin 2020-ci ildə aşağıdakı işləri də yerinə yetirmışlər:

- BDU serverləri daima nəzarət altında saxlanılmış, kənar müdaxilələrin qarşısının alınması məqsədilə lazımi tədbırlər görülmüşdür;
- Universitetin lokal şəbəkəsinin bəzi hissələri yenidən bərpa olunmuşdur;
- Əlavə və qiyabi təhsil alan tələbələrin imtanlarının test üsulu ilə keçirilməsi davam etdirilmişdir;
- Əlavə və qiyabi təhsil alan tələbələrin imtahanlarının keçirilməsi üçün bəzi fənlərin testləri təkminləşdirilib və yeni fənlərin testləri isə yaradılaraq sistemdə yerləşdirilmişdir;
- Yeni tyutor hazırlığı layihəsinin həyata keçirilmiş, 2019-2020-ci tədris ilində 23 nəfər tyutor hazırlanmışdır.

2014-cü ildən başlayaraq BDU üçün yaradılmış Elektron Universitet (EU) layihəsi çərçivəsində Tədrisin idarə olunması sisteminin (TİS) genişləndirilməsi və optimallaşdırılması isə davam etdirilir.

İTM əməkdaşları BDU tədbirlərində aktiv iştirak etmişdır.

**İTM-in rəhbəri** **Əzbər Sadayev**